**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**GÜNAY ÇAPAY QIZI HƏSƏNOVA**

# AZƏRBAYCAN XALQININ MƏİŞƏT MƏDƏNİYYƏTİ (MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN MATERİAL-LARI ƏSASINDA)

5101.01 – Etnoqrafiya və etnologiya

Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya AMEA Milli Azərbaycan Tarixi Muzeyinin «Etnoqrafiya elmi fond» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Fəzail İmran oğlu Vəliyev**
Tarix elmləri doktoru

**Rəsmi opponentlər:** **Hacı Qadir İbrahim oğlu Qədirzadə**
AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru

**Şövqi Vaqif oğlu Həsənov**
Tarix elmləri üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin
"Ümumi tarix" kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən (5101.01 – Etnoqrafiya və etnologiya) tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən FD 01.171 Dissertasiya Şurasının «_24_» 05_ 2013-cü il tarixli iclasında saat «   »-də keçiriləcəkdir.

Ünvan: Bakı-Az-1143, H.Cavid prospekti 31

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ___________ 2013-cü ildə göndərilmişdir

FD 01.171
Dissertasiya Şurasının
elmi katibi: Səfər Hüseyn oğlu Aşurov

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan etnoqrafiyası elminin qarşısında duran ən mühüm problemlərdən biri xalqımızın məişət mədəniyyətinin tarixi-etnoqrafik baxımdan araşdırılmasıdır. Məişət mədəniyyəti dedikdə, xalqımızın minilliklər boyu ilkin ibtidai təxəyyül və fəhm imkanları, zəngin empirik bilikləri və əməli vərdişləri hesabına yaradıb təkmilləşdirdiyi, zaman-zaman inkişaf etdirərək nəsillərdən-nəsillərə ötürdüyü maddi və mənəvi mədəniyyət nümunələri - təsərrüfat məişətinin əkinçilik, maldarlıq, bağçılıq, üzümçülük və yardımçı təsərrüfat sahələrində istifadə edilən məişət və əmək alətləri, ev peşəsi və sənətkarlıq məhsulları, daşdan, gildən, ağacdan, metaldan, dəmirdən və s. hazırlanmış təsərrüfat və ailə məişəti avadanlıqları, məişət geyimləri, evlərin interyerində işlədilən tikmə və toxuma məmulatları və s. başa düşülür. Bütövlükdə götürüldükdə, məişət mədəniyyəti xalqımızın yaratmış olduğu və bu gün milli ideologiyamızın əsas hissəsi olan milli-mənəvi dəyərlərimizin milli müəyyənlik göstəricisidir.

Mövzunun aktuallığını şərtləndirən əsas amillərdən biri milli-mənəvi dəyərlər səviyyəsində dərk edilən məişət mədəniyyətimizin Milli Azərbaycan Tarixi Muzeyinin etnoqrafik materialları əsasında öyrənilməsidir. Problemin aktuallığını şərtləndirən mühüm amillərdən biri də son dövrlərdə xalqımızın həyat və məişət tərzinin elmi-texniki inqilablar, ibtidaidən aliyə doğru sürətli inkişaf və qloballaşma prosesinin gətirdiyi yeni ab-hava nəticəsində ciddi dəyişikliyə uğraması, ənənəvi məişət mədəniyyətimizin yeni çalarlar əxz etməsi və müasirləşməsidir. Ənənəvi məişət tərzini yaşadan nəsillər dünyalarını dəyişdikcə və mədəni-texniki nailiyyətlərin sıra sayı artdıqca, həmin ənənəvi məişət mədəniyyəti də, istər-istəməz unudulur, yaddaşlardan silinərək tarixə qovuşur. Buna görə də bəşər tarixində baş verən tarixi təkamülü hərtərəfli bərpa etmək, ənənəvi məişət mədəniyyətimizin əsas sahələrini tədqiq etmək, gələcək nəsillərin təsəvvürlərində canlandırmaq etnoqrafiya elminin həlli vacib olan problemləri sırasında əsas yer tutur. Ənənəvi məişət mədəniyyətinin tədqiqində isə Milli Azərbaycan Tarixi Muzeyində qorunub saxlanılan milli sərvətlərimiz mühüm mənbə rolunu oynayır.

Bu günlər Müstəqil Azərbaycan Respublikasının milli-mənəvi dəyərlərinin daha dərindən elmi araşdırmalarla üzə çıxarılması, qorunması, ümumtürk və ümumdünya mədəniyyətinin tərkib hissəsi kimi təbliğ edilməsi, dünya miqyasında tanıdılması üçün dövlət səviyyəsində əhəmiyyətli işlər görülür. Milli-mənəvi və maddi meyarlar diqqət mərkəzinə çəkilir, milli-mənəvi şüura qayıdış çağdaş milli varlığın təsdiqi kimi reallaşır. Mədəni irsimizə böyük dəyər verən ulu öndər H.Əliyevin 2000-ci ilin martında imzaladığı "Muzeylər haqqında qanun"a görə "milli sərvətlərin saxlandığı muzeylərin və muzey

fondlarının mühafizəsinə dövlət qayğısı, onların ilk növbədə maliyyələsdirilməsi“ məsələlərinin irəli sürülməsi, Birləşmiş Millətlər Təşkilatının 2002-ci ili “Milli irsin qorunması ili” elan etməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 noyabr 2005-ci il tarixli 199 saylı qərarı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə və Azərbaycan Tarixi Muzeyinə Milli Muzey statusu verilməsi, 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncam və fərmanları ilə Milli Azərbaycan Tarixi Muzeyinin restavrasiyası, müasir tələblər baxımından qurulması üçün maliyyə vəsaiti ayrılması, 2010-cu ildə Milli Azərbaycan Tarixi Muzeyinin yaradılmasının 90 illiyinin dövlət səviyyəsində qeyd olunması dediklərimizə parlaq sübutdur. Tarixi-etnoqrafik araşdırmalara cəlb etdiyimiz dissertasiya mövzusu da bu baxımdan özünün aktuallığı ilə diqqət mərkəzində durur.

Mövzunun aktuallığını şərtləndirən mühüm cəhətlərdən biri də hələ bu vaxta qədər Azərbaycan xalqının ənənəvi məişət mədəniyyətinin Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunun materialları əsasında kompleks şəkildə etnoqrafik tədqiqata cəlb olunmamasıdır. Maddi və mənəvi dəyərlər sistemində əsas yer tutan ənənəvi məişət mədəniyyəti hər bir xalqın həyat tərzinin başlıca göstəricisinə çevrilərək tarixi tərəqqi prosesində xalqın toplamış olduğu empirik bilik, təcrübə və əməli vərdişlərlə daim zənginləşmiş, mədəni irsin aparıcı sahələrindən birini təşkil etmişdir. Təqdim etdiyimiz dissertasiya işi Azərbaycan xalqının ənənəvi məişət mədəniyyətinin əsas sahələrinin Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında olan materiallar əsasında kompleks şəkildə tarixi-etnoqrafik tədqiqata cəlb olunması yolunda ilk təşəbbüsdür.

**Tədqiqat işinin məqsəd və vəzifələri**. Tarixi-etnoqrafik tədqiqat işinin başlıca məqsədi Azərbaycan xalqının minilliklər boyu yaradıb biçimlədiyi, yeni-yeni çalarlarla zənginləşdirdiyi ənənəvi məişət mədəniyyətimizi kompleks şəkildə ümumiləşdirərək etnoqrafik araşdırmalara cəlb etməkdir. Bu məqsədə nail olmaq istiqamətində isə aşağıdakı vəzifələrin yerinə yetirilməsinə cəhd göstərilmişdir:

– Əkinçilik mədəniyyətimizlə bağlı muzey fondlarında toplanmış materialların elmi təsnifatını vermək, funksional və semantik özəlliklərini şərh etmək, xalq məişətində rolunu müəyyənləşdirmək;

– Maldarlıqla bağlı məişət mədəniyyətinin elmi-etnoqrafik xüsusiyyətlərini açmaq, onun ümumazərbaycan məişət mədəniyyətinin tərkib hissəsi kimi əhəmiyyətini araşdırmaqdır;

– Bağçılıq mədəniyyətinin xalq məişətində rolunu əks etdirən muzey materiallarını sistemləşdirmək, elmi təsnifatını və şərhini vermək;

– Yardımçı təsərrüfat sahələri ilə bağlı əmək alətləri və məişət ləvazimatlarını qruplaşdırmaq, onların xalq məişətində istifadə qayda-

larını müəyyənləşdirmək;

– Ev avadanlıqları və məişət müxəlləfatlarının ailə məişətində rolunu müəyyənləşdirmək, onların elmi təsnifatını və etnoqrafik şərhlərini vermək;

– Toy və yas mərasimləri ilə bağlı məişət əşyalarının xalq məişətində yerini və rolunu aydınlaşdırmaq;

– Ailə məişətində gündəlik və mərasim geyimlərinin elmi-etnoqrafik təsnifatını və şərhini vermək;

– Xalq məişətində sənətkarlıq sahələri (dulusçuluq, metalişləmə, toxuculuq, dəriçilik, ağacişləmə) məhsullarının istifadə qaydalarını müəyyənləşdirmək, onların təsnifatını vermək və məişətdə rolunu aşkarlamaq;

– Azərbaycan xalqının məişət mədəniyyətinin formalaşmasında əkinçilik, maldarlıq və xalq sənətkarlığı sahələrinin aparıcı rolunun olduğunu faktoloji materiallarla təsdiq etmək.

**Tədqiqatın obyekti və predmeti.** Tarixi-etnoqrafik araşdırmanın əsas obyektini AMEA Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında toplanmış materiallar əsasında tədqiqata cəlb olunan Azərbaycan xalqının məişət mədəniyyəti təşkil edir. Tədqiqata cəlb olunan əsas sahələr təsərrüfat məişəti, ailə məişəti və sənətkarlıqla bağlı maddi mədəniyyət nümunələridir. Tədqiqat predmeti olan bu maddi mədəniyyət nümunələrinin araşdırılmasında başlıca diqqət, yazılı ədəbiyyat və muzey materiallarından çıxış edərək xalq məişətinin formalaşmasında, ənənəvi məişət mədəniyyətinin yeni çalarlarla zənginləşməsində bu nümunələrin yerinə və roluna yönəldilmiş, onların elmi-etnoqrafik təsnifatı verilmiş və geniş şərhi aparılmışdır.

Milli Azərbaycan Tarixi Muzeyi zəngin maddi-mənəvi irsimizin qorunmasında, inkişafında, xalqımızın ənənəvi məişət mədəniyyətinin əyani-vizual materiallarla əks etdirilməsində mühüm rol oynadığından, məhz bu muzeyin kolleksiyaları tədqiqat predmetinin araşdırılmasında maddi baza kimi götürülmüşdür.

**Tədqiqatın xronoloji çərçivəsi** əsasən XIX-XX əsrin əvvəllərini əhatə etsə də, mövcud elmi ədəbiyyat və arxeoloji tədqiqatların nəticələrinə əsaslanaraq Azərbaycan xalqının məişət mədəniyyətinin elmi-etnoqrafik təhlili və şərhi tarixi təkamül və tarixi varislik prinsiplərinin fəal təsiri nəzərə alınmaqla, tarixilik baxımından aparılmışdır. Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında mühafizə olunan maddi mədəniyyət nümunələrinin bir çoxu daha qədimlərlə səsləşdiyinə görə, istər-istəməz, qeyd olunan xronoloji çərçivədən kənara çıxılmış, əvvəlki tarixi dövrlərin də məişət mədəniyyətinə aid materialları tədqiqata cəlb olunmuşdur.

**Mövzunun araşdırılma vəziyyəti.** Tədqiqat obyekti kimi, müraciət etdiyimiz Azərbaycan xalqının məişət mədəniyyətinin tarixi-etnoqrafik baxımdan öyrənilməsi mövzusunun material bazası olan Milli Azərbaycan

Tarixi Muzeyinin fondları indiyədək kompleks şəkildə etnoqrafik tədqiqat obyekti olmamışdır. Lakin bununla belə, problemin bu və ya digər tərəflərinə mülki tarix, etnoqrafiya, sənətşünaslıq, arxeologiya, iqtisadi tarix üzrə mütəxəssislərin əsərlərində az və ya çox dərəcədə münasibət bildirilmişdir. Belə ki, xalqımızın təsərrüfat məişəti ilə bağlı Ə.S.Sumbatzadənin, T.Ə.Bünyadovun, H.A.Quliyevin, Q.C.Cavadovun, Ş.A.Quliyevin, A.N.Mustafayevin, Ə.Ə.İsmayılovanın, S.M.Ağamalıyevanın, H.A.Həvilovun, sənətşünaslardan S.D.Əsədovanın, S.S.Dünyamalıyevanın, R.Əfəndiyevin, L.Kərimovun, Ə.S.Əliyevanın və b. əsərlərində tədqiq etdiyimiz mövzu barədə müəyyən məlumatlara rast gəlmək mümkündür.

Tədqiq olunan mövzunun araşdırılmasında 1956-2001-ci illərdə nəşr olunan "Azərbaycan Tarixi Muzeyinin əsərləri", 2002-ci ildən hazırkı dövrə qədər isə "Azərbaycan Tarixi Muzeyi" adlanan məqalələr toplusunda dərc olunan elmi araşdırmalar faktoloji materialların bolluğu ilə diqqəti cəlb edir. Bu topluda işıq üzü görən Ş.H.İshaqovanın, H.A.Quliyevin, M.N.Nəsirlinin, Q.T.Qaraqaşlı və E.H.Babayanın, G.S.Abdulovanın (Axundovanın), F.İ.Vəliyevin, Ş.T.Bünyadovanın, A.Rüstəmbəyovanın, Ə.Ə.İsmayılovanın, S.A.Məmmədovanın, M.A.Seyidzadənin və b. araşdırmalarında xalqımızın məişət mədəniyyətinin bu və ya digər tərəfləri haqqında qiymətli elmi fikir və mülahizələr irəli sürülmüşdür.

Məlumdur ki, bu günkü Milli Azərbaycan Tarixi Muzeyi 1920-ci ildə Azərbaycan Dövlət Muzeyi kimi təşkil olunmuş, müxtəlif illərdə muzeyin yubileyləri keçirilmişdir. Bu yubileylərlə bağlı nəşr olunan toplularda da xalqımızın məişət mədəniyyətinin öyrənilməsinə həsr olunmuş çoxsaylı məqalələr dərc olunmuşdur. Milli Azərbaycan Tarixi Muzeyinin 90 illiyinə həsr olunan Beynəlxalq konfransın materialları "Muzeylər və mədəni irs" adı altında elmi ictimaiyyətə təqdim olunmuşdur. Burada dərc olunan məqalələr içərisində A.Rüstəmbəyovanın, E.Cəfərovanın, N.Yusifovanın, V.Paşayevanın və b. araşdırmaları da mövzunun öyrənilməsi və materialların sistemləşdirilməsi işində bizə yardımçı olmuşdur.

Bütün bunlar özlüyündə mükəmməl elmi-tədqiqat araşdırmaları olsa da, Azərbaycan xalqının məişət mədəniyyətinin öyrənilməsi yolunda olduqca zəif atılmış addımlardır və tədqiq etdiyimiz mövzunu bütünlüklə əhatə etmir. Təqdim etdiyimiz dissertasiya işi isə bu boşluğun doldurulması yolunda ilk cəhddir və xalqımızın məişət mədəniyyətinin etnoqrafik baxımdan kompleks şəkildə araşdırılmasına istiqamətlənmişdir.

**Tədqiqat işinin nəzəri-metodoloji əsasını** Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında toplanmış zəngin maddi mədəniyyət nümunələrinə tarixilik baxımından elmi yanaşma, təsviri, tarixi-müqayisəli analiz, sosial-struktural və sistematik tarixi ümumiləşdirmə metodlarından istifadə etməklə milli-mənəvi və maddi sərvətlərimizin azərbaycançılıq-

türkçülük milli ideologiyası baxımından araşdırılması təşkil edir. Bu nəzəri-metodoloji bazaya söykənərək Azərbaycan xalqının məişət mədəniyyətinin ayrı-ayrı sahələri – təsərrüfat məişəti, ailə məişəti və sənət-peşə məşğuliyyəti ilə bağlı formalaşan məişət hərtərəfli etnoqrafik tədqiqata cəlb olunur, XX əsrin əvvəllərinə qədər formalaşan xalq məişətinin məhəlli-lokal xüsusiyyətləri, türk etnik - mədəni mühitinə xas olan keyfiyyətləri və özəllikləri aşkara çıxarılır.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiya işinin əsas mənbəşünaslıq bazasını AMEA Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında qorunub saxlanan, Azərbaycanın müxtəlif tarixi-etnoqrafik bölgələrindən əldə edilmiş eksponatlar, arxeoloji qazıntılardan aşkar edilmiş maddi mədəniyyət nümunələri, eləcə də ev peşəsi və sənətkarlıq məmulatları təşkil edir.

Bundan başqa tədqiqatımızın faktik materiallar bazasında xalqımızın məişət mədəniyyətinin ayrı-ayrı sahələrinə həsr olunmuş tarixi, arxeoloji, etnoqrafik, sənətşünaslıq və folklorşünaslıq tədqiqatları da əsas yer tutur. Yəni, tədqiq olunan və aktual olan problemin nəzəri-praktiki bazasının müəyyənləşdirilməsində akademik T.Ə.Bünyadovun, Q.T.Qaraqaşlının, H.A.Həvilovun, A.N.Mustafayevin, R.Əfəndiyevin, Q.Ə.Qeybullayevin, H.A.Quliyevin, S.A.Quliyevin, F.İ.Vəliyevin, S.S.Dünyamalıyevanın, Ə.Ə.İsmaylovanın, S.D.Əsədovanın, T.M.Kərimovun, G.S.Abdulovanın, C.M.Ağamalıyevanın və b. tədqiqatları əsas götürülmüşdür. Tədqiqat işinin faktik material bazası üçün Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşlarının tərtib etdikləri “Azərbaycan Tarixi Muzeyinin Elmi Əsərləri” və 2002-ci ildən nəşr edilməyə başlanan “Azərbaycan Tarixi Muzeyi” illik topluları da böyük əhəmiyyət kəsb edir.

**Tədqiqat işinin elmi yeniliyi.** Tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- İlk dəfə olaraq Milli Azərbaycan Tarixi Muzeyində toplanmış milli-mənəvi və maddi sərvətlər - eksponatlar əsasında Azərbaycan xalqının məişət mədəniyyəti kompleks şəkildə tarixi etnoqrafik tədqiqata cəlb olunmuşdur.
- Muzeyin fondlarında olan materiallar əsasında xalqımızın təsərrüfat məişətinin əkinçilik, maldarlıq, bağçılıq, üzümçülük və yardımçı təsərrüfat sahələrinin geniş tarixi-etnoqrafik təhlili və şərhi aparılmış, təsərrüfat məişətində istifadə olunan əmək alətləri, məişət ləvazimatları qruplaşdırılaraq onların məişətdəki rolu aşkarlanmışdır.
- Ailə məişəti ilə bağlı ev avadanlıqlarının, evlərin interyeri üçün toxuma və tikmə məmulatlarının, toy və yas mərasimləri ilə bağlı məişət əşyalarının, eləcə də gündəlik və mərasim geyimlərinin

tipoloji təsnifatı aparılmış, məişət əhəmiyyəti müəyyənləşdirilmiş, ənənəvi məişət mədəniyyətimizin formalaşmasında yeri və rolu göstərilmişdir.

– Xalq məişətində sənətkarlıq məmulatlarının yeri və rolu problemi də ilk dəfə olaraq muzey materialları əsasında hərtərəfli araşdırılmışdır.

– Təqdim olunan dissertasiya işində Azərbaycan xalqının məişət və mədəniyyət tarixinə milli azərbaycançılıq ideologiyasından irəli gələn və son dövrlərdə özünü daha qabarıq göstərən milli baxış da öz əksini tapmışdır.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti** ondan ibarətdir ki, muzey fondlarında saxlanan maddi mədəniyyət nümunələrinin təsnifatından, aparılan ümumiləşdirmələrdən və çıxarılan nəticələrdən Azərbaycanın tarixi etnoqrafiyasını öyrənmək, məişət mədəniyyətində baş verən dinamik inkişaf və keyfiyyət dəyişikliklərini izləyib daha düzgün dərk etmək üçün istifadə oluna bilər. Dissertasiya işinin materiallarından həmçinin Azərbaycan tarixinə və etnoqrafiyasına dair dərsliklərin və metodiki vəsaitlərin hazırlanmasında, türk etnik-mədəni mühitində məişət və mədəniyyətin özəlliklərinin araşdırılmasında, xalqımızın məişət mədəniyyətinə həsr olunan kataloq, illüstrativ albom, buklet, açıqca dəstlərinin tərtib olunmasında, Azərbaycan xalqının maddi mədəniyyətinin, təsərrüfat və ailə məişətinin, geyim mədəniyyətinin, sənət yaradıcılığının, bir sözlə, milli-mənəvi dəyərlərimizin öyrənilməsində və təbliğində gərəkli vasitə kimi istifadə oluna bilər.

**Tədqiqatın təqdir olunması.** Təqdim olunan dissertasiya işi Azərbaycan MEA Milli Azərbaycan Tarixi Muzeyinin "Etnoqrafiya elmi fond" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın ayrı-ayrı fəsilləri ilə bağlı problemlərlə beynəlxalq konfranslarda, Azərbaycan Milli Elmlər Akademiyasında və respublikada keçirilən konfrans və elmi sessiyalarda məruzələr edilmişdir. Dissertasiyanın mövzusu ilə bağlı əsas müddəalar müəllif tərəfindən dərc edilərək müxtəlif elmi nəşrlərdə və mətbu orqanlarda öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu:** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat, qəbul olunmuş ixtisarların siyahısından ibarətdir. Tədqiqat işinə xalqımızın məişət mədəniyyətini özündə əks etdirən illüstrativ albom da əlavə olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

«Giriş»də mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, xronoloji çərçivəsi, tədqiqat obyekti və predmeti, problemin araşdırılma vəziyyəti, nəzəri-metodoloji və mənbəşünaslıq bazası, elmi yeniliyi, elmi-praktik əhəmiyyəti, tədqiqatın təqdir olunması və dissertasiyanın quruluşu öz əksini tapmışdır.

Dissertasiya işinin I fəsli «**Təsərrüfat məişəti**» adlanır və özündə üç böl-

məni birləşdirir. Fəslin «**Təsərrüfat məişətində istifadə olunan əkinçilik alətləri**» adlanan birinci bölməsində qeyd olunur ki, Azərbaycan xalqının təsərrüfat məişətində aparıcı yer tutan əkinçilik mədəniyyətinin formalaşmasında əkinçilik alətlərinin öz xüsusi yeri və rolu olmuşdur. Əmək (əkinçilik) alətləri maddi mədəniyyətin elə bir sahəsidir ki, onun təkamülü və inkişafı təkcə sosial-iqtisadi amillərlə deyil, həm də təbii-coğrafi şəraitlə bilavasitə sıx təmasdadır.

Əkinçilik mədəniyyəti tarixində baş verən tarixi təkamülü hərtərəfli bərpa etmək, xalqımızın yaratdığı təsərrüfat məişəti ənənələrini gələcək nəsillərə çatdırmaq etnoqrafik tədqiqatlarda və muzeyşunaslıq işində ən böyük fədakarlıqdır. Xalqımızın yaratdığı mükəmməl və zəngin təsərrüfat məişəti kompleksinin araşdırılmasında AMEA Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında mühafizə olunan əkinçilik alətləri mühüm mənbə rolunu oynayır. Bu əmək alətlərinin öz əməli əhəmiyyətinə və təyinatına görə aşağıdakı şəkildə təsnifatını vermək daha məqsədəuyğundur:

1. Əkin (şum) prosesində istifadə olunan əkinçilk - əmək alətləri.
2. Suvarma işi ilə bağlı əkinçilk - əmək alətləri.
3. Biçinlə bağlı əmək alətləri.
4. Döyüm prosesi ilə bağlı əkinçilk- əmək alətləri.

Əkin (şum) prosesində istifadə olunan əkinçilik - əmək alətləri başlıca olaraq xış və ya cüt, qara kotan, mala, mərküz (kərdivar) və s.-dən ibarət olmuşdur. Azərbaycan xalq əkinçilk (şum) alətlərinin uzunmüddətli tədqiqatlarını aparan etnoqraf Q.Cavadov burada şum alətlərindən xış, ulamalı xış, diyircəkli kotan və qara kotanın xarakterik olduğu qənaətinə gəlmişdir. Qoşqu qüvvəsi ilə hərəkətə gətirilən ağac xışlardan Qafqazda nə zamandan istifadə olunması məlum olmasa da, Azərbaycanda ağac xışlardan tunc dövrünün əvvəllərindən istifadə edildiyi şübhəsizdir. Azərbaycan əkinçiləri gələcək bol məhsulun əsasının şumlama prosesində qoyulduğunu çoxəsrlik təcrübələr əsasında yaxşı bildiklərindən, torpağın şumlanmasında daha mürəkkəb konstruksiyalı şum alətlərinə də müraciət edirdilər. Belə şum alətlərindən biri, dörd cütə qədər qoşqu heyvanı ilə hərəkətə gətirilən, xüsusi laydırla təchiz edilən, bir cüt ağac təkəri olan, oturacaq (dayaq) hissəsinə ağır və iti gavahın bərkidilən qara kotan idi. Bu alətə torpaq şəraitindən asılı olaraq 4-6, bəzi yerlərdə isə 8-10 cüt qoşqu heyvanı qoşulur. B.H.Zaxoder qara kotanın təxminən VIII-IX əsrlərdən cənubi Qafqazda istifadə olunduğunu ehtimal edir. Bölmədə muzey materialları əsasında qara kotanın işçi hissələri, xalq arasında mövcud olmuş adları, mahiyyəti və iş prinsipi haqqında ətraflı məlumat verilir. Burada həmçinin səpin, suvarma, becərmə proseslərində istifadə olunan əkinçilik-əmək alətləri – müxtəlif adlı və təyinatlı malalar, mərküz, suvarma belləri, toxalar, alaqkeşlər və s. haqqında da məlumat verilir ki, bütün bunlar əkinçilik mədəniyyətimizin inkişafını əyani şəkildə əks etdirir.

Xalqımızın zəngin təsərrüfat məişətində biçin alətlərinin də özü-

nəməxsus yeri və rolu olmuşdur. Bunlar dəryaz (kərənti), mərəndi, çin, oraq və s. ibarət olub, muzey fondunda nümunələri saxlanılmaqdadır. Məlum olduğu kimi, taxılçılıqda məhsulun yığımı və döyümü də mühüm əmək prosesidir. Biçin alətlərinin forma və quruluşları, habelə biçin üsulları bir daha təsdiq edir ki, bu sahədəki ənənəvi vərdiş və təcrübə əsrlər boyu o qədər də böyük dəyişikliklərə məruz qalmamışdır. Belə ki, XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda biçində işlədilən çin, oraq kimi əmək alətləri, arxeoloji qazıntılardan tapılmış eyni alətlərlə demək olar ki, oxşarlıq təşkil edirlər.

Azərbaycanın Naxçıvan tarixi-etnoqrafik bölgəsində taxıl biçinində xüsusi olaraq bu bölgə üçün xarakterik olan və "mərəndi" adlanan əmək alətindən istifadə olunurdu. Muzeyin Etnoqrafiya fondunda saxlanılan mərəndi ağac (taxta) dəstədən və metal tiyədən ibarətdir. Adətən mərəndinin ölçüləri böyük olurdu. Tiyəsi uzun olduğuna görə mərəndi ilə az vaxt ərzində iri əkin sahələrinin taxılını vaxtında və itkisiz biçmək olurdu.

Azərbaycan xalqının təsərrüfat məişətində mühüm yer tutan, "mövcud olduğu dövrün xarakterini, məhsuldar qüvvələrin səviyyəsini müəyyən etmək üçün əsas amillərdən biri sayılan istehsal alətləri", eləcə də əmək-əkinçilik alətləri içərisində döyüm prosesi ilə bağlı alətlər də mühüm yer tutmuşdur. Bunlardan taxılın döyülməsində istifadə olunan daş və ağac vəllər, ding, carcar, vərdənə adlanan və daşdan olan döyüm aləti, taxılın sovurulmasında və dərzlərin çinlənməısində, eləcə də taxılın tığa (topaya) vurulmasında istifadə olunan ağac kürəklər, şanalar, xəlbir-şadaralar təsərrüfat məişətində faydalı əmək alətləri sırasında idi. Muzey fondunda bunların nümunələri qorunmaqdadır.

Digər dənli bitkilərdən fərqli olaraq, çəltik döyülüb bəlimdən çıxarılandan sonra həm də sərilib qurudulur və təkrar dibək və ya ding vasitəsilə döyülüb qılafdan təmizlənirdi. Dingin iki növü olmuşdur - əl və ayaq dingi. Muzeyin ekspozisiyasında nümayiş olunan ding ayaq dingi olub, çəltiyin qabığının təmizlənməsi üçün istifadə olunmuşdur. Bu ding 1955-ci ildə Nuxa (Şəki) rayonunun Yuxarı Küngüt kəndindən etnoqraf H.Quliyev tərəfindən əldə edilmişdir və qoz ağacı gövdəsindən ovularaq düzəldilmişdir. Dingin qabaq hissəsində balaca çala vardır ki, döyüm zamanı oraya çəltik dəni tökülür, üstündə olan ağac yuxarı-aşağı qaldırılıb endirilməklə çalada olan çəltik qabığından ayrılır.

Bütün bunlardan başqa, Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında nümayiş etdirilən eksponatlar arasında xalqımızın təsərrüfat məişətində geniş istifadə olunan şana, kürək, yaba, balta, dəhrə, oraq və s. vardır ki, bunlar məişət mədəniyyətimizdə xüsusi yer tutan əkinçilik mədəniyyətinin xeyli zənginliyinə şəhadət verir. Azərbaycan əkinçilik mədəniyyətində istifadə olunan əmək alətləri xalqın təsərrüfat məişətinin araşdırılmasında əvəzolunmaz mənbə rolunu oynayır.

I fəsilin ikinci bölməsi «**Heyvandarlıqla bağlı muzey eksponatları**» adlanır. Azərbaycan xalqının təsərrüfat məişətinin mühüm istiqamətlərindən birini heyvandarlıq təşkil edir. Hevandarlıq dedikdə, qaramal bəslənməsini əhatə edən maldarlıq, eləcə də qoyunçuluq, dəvəçilik, atçılıq və s. kimi təsərrüfat sahələri başa düşülür. Minilliklər boyu bəşər övladını maldarlıq məhsulları – süd-ağartı, ət, yağ, yun, dəri və s. ilə təchiz edən heyvandarlıq, əkinçilik təsərrüfatının da inkişafında (qoşqu qüvvəsi, minik-yük qismində) mühüm rol oynamış, zaman-zaman xalqımızın ticarət – iqtisadi əlaqələrinin genişlənməsində karvan-dəvə nəqliyyatı müstəsna əhəmiyyətə malik olmuşdur. Buna görə də, heyvandarlıq təsərrüfat məişətimizin ən vacib sahələrindən birinə çevrilməklə, xalqımızın məişət mədəniyyətinin formalaşmasında özünün aydın izlərini qoymuşdur. Azərbaycanın təbii-coğrafi şəraiti, zəngin və daimi yem ehtiyatlarına malik dağ-alp çəmənlikləri, meşələri, örüşləri, əlverişli landşaft-relyef quruluşu ilə seçilən geniş düzənlikləri, sərfəli iqlim şəraiti, içməli suları, bir sözlə, dağlıq, dağətəyi və düzənlik ərazilərinin təbii zənginlikləri xalqımızın təsərrüfat məişətində heyvandarlığın da əkinçilik kimi aparıcı sahəyə çevrilməsini şərtləndirmişdir. AMEA Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında mühafizə olunan eksponatlar Azərbaycanda heyvandarlıq təsərrüfatının ümumi mənzərəsini səciyyələndirməklə, xalqın bu sahədə qazandığı empirik bilikləri, təcrübələri, vərdişləri özündə əks etdirən əyani – vizual materiallardır və xalq məişətinin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Təsərrüfat məişətimizin bu sahəsində istifadə edilən məişət avadanlıqları, müxtəlif materiallardan hazırlanmış məişət qabları, qoşqu vasitələri, yəhər dəstləri, qoşma və yükləmə ləvazimatları, xüsusi mülkiyyət sahiblərinin öz mülkünə sahibliyini təsdiq edən və mal-davara vurulan damğalar, kamil sənət əsəri səviyyəsində hazırlanan yəhər üzlükləri, çullar, təkaltılar, keyvəndlər, məfrəşlər, at bəzəkləri və s. xalqın güzəranında mühüm rol oynamış, məişət mədəniyyətimizin milli müəyyənlik göstəricilərinə çevrilmişdir. Xalq öz əkin sahəsinin şumlanmasında, zəruri məişət yüklərinin daşınmasında, aramsız uzanan köç yollarında mal-davarın müşaiyət olunmasında, qida tələbatının ödənilməsində, yun, dəri kimi xammalın əldə edilməsində, natural mübadilənin həyata keçirilməsində daim heyvandarlıq təsərrüfatına müraciət etmiş, özünün zəruri məişət ehtiyaclarını yetərincə ödəyə bilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyində qorunub saxlanan örkən, sicim və doğanaq dəstlərinin çoxluq təşkil etməsi də Azərbaycan xalqının təsərrüfat məişətində heyvandarlığın aparıcı yerlərdən birini tutduğunu sübut edir. Əhali qoyun yunundan, keçi qəzilindən əyirmə, toxuma və hörmə üsulları ilə hasilə gətirdiyi örkən – sicim dəstlərindən həm qoşqu heyvanlarını alıqlayıb - palanlamaq, həm də zəruri məişət yüklərini daşıyan zaman onları arabaya və ya yük heyvanlarının belinə sarımaq üçün geniş şəkildə işlətmişdir.

Muzeydə toplanan və heyvandarlıq təsərrüfatı haqqında aydın təsəvvürlər yaratmağa imkan verən çoxsaylı eksponatların tarixi-etnoqrafik tədqiqata cəlb olunması ilə biz təsərrüfat məişətimizin bu sahəsinin xüsusiyyətləri, heyvandarlıq məhsullarının xalqın geyim mədəniyyətində, mətbəxində rolu, qoşqu qüvvəsi kimi istifadə olunan heyvanların əkinçilik mədəniyyətinin inkişaf etdirilməsində əhəmiyyəti, minik-yük nəqliyyatı vasitələrinin XIX-XX əsrin əvvəllərinə qədərki mövcud durumu və s. məsələlər barəsində yetərli məlumatlar alır, məişət mədəniyyətimizin formalaşmasında bu eksponatların yerini və rolunu aşkara çıxara bilirik.

Fəslin üçüncü bölməsi «**Bağçılıq və yardımçı təsərrüfat sahələri**» adlanır. Azərbaycanlıların təsərrüfat-iqtisadi həyatında və məişətində bağçılıq və onun sahələri, eləcə də yardımçı təsərrüfat sahələri (arıçılıq, balıqçılıq, ovçuluq) da mühüm yer tutmuş, zaman-zaman empirik biliklər, əməli təcrübələr və ənənələr hesabına inkişaf etdirilərək zamanəmizədək gəlib çatmışdır. Azərbaycanın dağlı-aranlı təbii zonallığı, torpaq örtüyünün müxtəlifliyi, əlverişli iqlim şəraiti, bolsulu çayları və Xəzər dənizi burada sözügedən təsərrüfat sahələrinin inkişafını şərtləndirmiş, məişət mədəniyyətimizdə onların yerini və rolunu müəyyənləşdirmişdir. Azərbaycanın səriştəli bağbanları onlarla yabanı cır meyvə və bitkilərin mədəniləşdirilməsində fərqləndikləri kimi, arıçılıq, ovçuluq və balıqçılıq sahəsində milli ənənələrin formalaşmasında da arıçılar, ovçular və balıqçılar aparıcı rol oynamışdır.

Azərbaycanda bağçılığın qədim tarixi olduğunu qeyd edən akademik N.İ.Vavilov Cənubi Qafqazı dünyda bir sıra bitkilər, xüsusilə meyvələrin (üzüm, alma, armud, alça, nar, heyva və s.) ilk dəfə mədəniləşdirilməsinin vətəni hesab edir. Tarixi-etnoqrafik tədqiqatlar qədim və orta əsrlər Azərbaycanında bağçılığın mövcud durumu, inkişafı və xalqın təsərrüfat məişətində əhəmiyyəti barədə ətraflı məlumatlar verir. Azərbaycanda bağçılıq təsərrüfatının daha sürətli inkişaf dövrü isə, XIX-XX əsrin əvvəllərinə təsadüf edir.

Etnoqrafik materiallar XIX əsrdə meyvəçiliyin (bağçılığın) artıq Azərbaycanın əksər qəzalarında inkişaf etdiyini göstərir. Lakin Quba, Şamaxı, Göyçay, Şəki, Naxçıvan qəzaları meyvəçiliyin əsas mərkəzləri hesab edilirdi. XX əsrin əvvəllərinə qədər Azərbaycanın bağçılıq təsərrüfatında yerli meyvə növləri daha üstün yer tutmuş və xalq arasında yüksək qiymətləndirilmişdir. Abşeronun sarıənciri, Naxçıvanın sin armudu, şəkər armudu, əndiryanı armudu, Əbutalıbı əriyi, peyvəst əriyi, kəhat heyvası, Ordubadın salamı, zəfəranı, alanayı, nazlı, tərəlli, şərəlli, qışlıq şaftalı növləri, Qubanın cırhacı, qəndilsinab alması, Şəki-Zaqatalanın ağagörməz, vələçin, yay gübı, qarabağıp, naibi, pərzivan, çobankol armudu xalq seleksiyasının uzun illər boyu yaratdığı meyvə növləri olub, hər biri öz bölgəsində şöhrət qazanmışdır. Əbutalibi əriyi 1898-ci ildə Kaliforniyada təşkil edilmiş ümumdünya meyvəçilik sərgisində birinci yerə layiq görülmüşdür. AMEA Milli Azərbaycan Tarixi

Muzeyinin fondlarında mühafizə olunan bağçılıq təsərrüfatına aid eksponatlar bu sahənin etnoqrafik xüsusiyyətlərinə (bağların salınması, becərilməsi, meyvənin çeşidi, saxlanılması, satışı və s.) genişliyi ilə aydınlıq gətirə bilməsə də, hər halda bu təsərrüfat sahəsinin məişətdə yeri və rolu barədə mülahizələr söyləməyə imkan verir. Muzey eksponatları arasında bellərin, düz və xırxı-şəkilli ağızlığı olan bağ bıçaqlarının, tənək qayçılarının, dəhrələrin, kiçik baltaların və s. olması sübut edir ki, Azərbaycan bağçılıq təsərrüfatı çoxəsrlik xalq təcrübələri və milli ənənələr üzərində pərvəriş tapmış və inkişaf etdirilmişdir.

Meyvəçilikdə əsas təsərrüfat işlərindən birini məhsulun toplanması təşkil edir. Yetişmiş meyvələrin yığılmasında Azərbaycan əhalisi əllə yığıma (dəstərçin və ya dənləmə), koğar adlı alətlə yığıma, silkələməklə və ya çırpma üsulu ilə yığıma daha çox üstünlük verirdi. Adətən uzun müddət saxlamaq və satış üçün nəzərdə tutulan meyvələr əllə bir-bir yığılar, əlçatmaz budaqlarda olan meyvələr isə xüsusi düzəldilmiş, alt hissəsinə hörmə səbət bərkidilmiş "meyvəgir" və ya "armuddərən"lə, eləcə də "koğar" adlı alətlə yığılardı. Yığılmış meyvələri çubuqdan və ya həsirdən hörülmüş səbətlərə yığaraq lazımı yerlərə daşıyırdılar. Xüsusilə üzümü "cəvərə" adlanan səbətə yığırdılar. Cəvərə 60-80 sm hündürlüyündə, oturacağı ağac dayaqdan ibarət söyüd və ya qoz (fındıq) ağaclarından (şivlərindən) toxunmuş, konusvari görkəmi olan səbət idi. Çiyinə keçirmək və ya ağacdan asmaq üçün səbətin ipdən bağları olurdu. Belə bir səbət nümunəsi muzeyin etnoqrafiya fondunda qorunub saxlanmaqdadır. Bağçılıq təsərrüfatı ilə məşğul olan əhali arasında meyvənin yığılıb təyinatı üzrə işlədilməsi sahəsində də çoxəsrlik ənənələr mövcud olmuşdur. Bağçılıqla daha çox məşğul olan Ordubad əhalisi təzə məhsulu yığandan sonra onun bir hissəsini adətən ailənin gündəlik tələbatlarına ayırır, digər hissəsini isə taxılçılıqla məşğul olan kəndlərdə taxıla və yaxud qonşu dağ kəndlərində maldarlıq məhsullarına (yun, yağ, pendir və s.) dəyişdirirdilər. Meyvələrin çox hissəsi qurudularaq satış üçün yaxın bazarlara çıxarılır və ya kənara ixrac olunurdu. Etnoqrafik ədəbiyyatda Ordubad bölgəsinə aid edilən bu hal bütün Azərbaycanın bağçılıq təsərrüfatı üçün səciyyəvi olmuşdur. Meyvələrin qurudularaq il boyu istifadəsi üçün müxtəlif meyvə qurutma üsul və vasitələrindən istifadə edilirdi. Günəş altında, təndirdə və kürədə meyvə qurutma qaydalarından əhali geniş şəkildə istifadə edirdi. Bu qayda ilə hasilə gətirilən alma və armuddan qax, ərikdən qaysı, gavalıdan albuxara, üzümdən kişmiş və mövüc, alçadan turşu və lavaşana, tut və əncirdən quru (piskəndə), zoğaldan axta, şaftalıdan alana, qozdan basdıq (sucuq) hazırlamaq sahəsində xalqın böyük empirik bilikləri və vərdişləri formalaşmışdı. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda meyvə qurutmaq üçün istifadə olunan, təzəkdən hazırlanmış, üzərinə sarı torpaqdan şirə çəkilmiş, dəyirmi və ellips formalı gillə nümunələri saxlanmaqdadır. Ellips formalı gillələr başlıca olaraq

Azərbaycanın Quba-Xaçmaz və Şəki-Zaqatala bölgələrində, dəyirmi gillələr isə Şirvan bölgəsində təndirdə meyvə qurutmaq üçün istifadə olunmuşdur. Həmin gillələr bəzən gildən də düzəldilir, çörək bişirmək üçün istifadə olunan təndirdən 2 dəfə böyük olan təndirin içərisində meyvə qurutmaq üçün istifadə olunurdu.

Xalqımızın təsərrüfat məişətində minilliklər boyu yardımçı təsərrüfat sahələri də mühüm yer tutmuş, bu sahələrdən alınan qida məhsulları və xammal məişət ehtiyaclarının ödənilməsində yetərli olmuşdur. Belə yardımçı təsərrüfat sahələrindən biri balıqçılıqdır. Etnoqrafik tədqiqatlar sübut edir ki, Azərbaycanda əhali qədim zamandan balıqçılıqla məşğul olmuşdur. Xəzər dənizinin cənub-qərb sahili, oraya tökülən iri və xırda çaylar (Kür, Araz, Alazan (Qanıq), İori (Qabırrı), eləcə də göllər (Göyçə gölü və b.) burada balıqçılığın inkişafı üçün əlverişli şərait yaratmışdır. Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında saxlanılan maddi mədəniyyət nümunələri arasında xalqımızın balıqçılıq təsərrüfatına aid təsəvvürlər yarada biləcək qədər yetərli eksponatlar vardır. Hər şeydən əvvəl, muzeyin eksponatları arasında balıqçı torları diqqəti cəlb edir. Onlardan biri ağ ipək sapdan xırdagözlü toxunmaqla, əsasən xırda çay və dəniz balıqlarının ovlanmasında istifadə edilmişdir. Muzeyin eksponatları arasında tor, lot (pərsəng), toxmaq, qarmaq, qovuq, kürü ələyi və s. olması göstərir ki, Azərbaycanda balıqçılıq geniş şəkildə inkişaf etmişdir, balıqçılıq məhsulları əldə etmək üçün müxtəlif alət və vasitələrdən, ov üsullarından istifadə edilmişdir.

Xalqımızın təsərrüfat həyatında və məişətində arıçılıq da qədim zamanlardan müəyyən yer tutmuşdur. Azərbaycanın əlverişli coğrafi mövqeyi, iqlimi, zəngin bitki örtüyü (burada 125 fəsiləyə mənsub 4100-dən çox bitki növü vardır ki, onların da 600-ü ballı bitki növüdür) dağ və dağətəyi bölgələrdə arıçılığın inkişafına əlverişli zəmin yaratmışdır. Aparılan araşdırmalar göstərir ki, Azərbaycanın Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran-Astara, Şirvanın dağ və dağətəyi bölgələri, Qarabağ, Gədəbəy-Daşkəsən, Naxçıvan, Kəlbəcər bölgələri arıçılığın qədim mərkəzləri olmuşdur. Azərbaycan ərazisində er.əv. III-II minilliklərdə arı mumundan sənətkarlığın müxtəlif sahələrində istifadə olunması, er.əv. I minillikdən ev arıçılığının inkişaf etdrilməsi, Qazax rayonunda Sarıtəpə yaşayış yerindən tapılmış qabın içərisindən sarı rəngli məhlul-bal aşkar edilməsi, Qafqazda yerli əhalinin səbət və gil qablarda arı saxlanması barədə yunan tarixçisi Herodotun və Albaniyanın (Azərbaycanın) Şakaşena və Matiyena vilayətlərində ağac koğuşlarında məskən salan bal arıları və yarpaqlardan süzülən bal haqqında yunan coğrafiyaşünası Strabonun məlumatları Azərbaycanda arıçılığın qədim tarixini təsdiqləyən faktik göstəricilərdir. Muzeyin Etnoqrafiya fondunda arı godu və səbətlərinin saxlanılması arıçılığın yardımçı təsərrüfat

sahəsi kimi xalqın məişətində rolunu sübut edir. Arıçılıq məhsulları (bal, mum və s.) xalqın qida mədəniyyətində, xalq təbabətində və ayrı-ayrı sənət sahələrində geniş şəkildə işlədildiyinə görə, məişətə möhkəm daxil olmuşdur. Balın ömrü uzatmaq qabiliyyəti, müalicəvi təsiri, tərkibinin 80%-dən çoxunu qlükoza və meyvə şəkəri təşkil etməsi, ondan xalq məişətində şirniyyatların və şərbətlərin hazırlanmasına da rəvac verirdi.

Dissertasiya işinin II fəsli «**Ailə məişəti**» adlanmaqla, özündə dörd bölməni birləşdirir. Bu fəslin «**Ailə məişəti ilə bağlı ev avadanlıqları**» adlanan birinci bölməsində – heyvandarlıq məhsullarının tədarükü və emalı, ehtiyat ərzaq məhsullarının hazırlanması və saxlanması, ev peşəsi və sənətkarlıq məhsullarının istehsalında istifadə olunan avadanlıqlar, eləcə də ailənin qida öynəsinin təminatında istifadə olunan avadanlıqlar, ev müxəlləfatı və onları saxlamaq üçün toxuma və hörmə məmulatlar, müxtəlif materiallardan hazırlanmış məişət qabları və s. haqqında söhbət açılır, onların məişət mədəniyyətimizin formalaşmasında yeri və rolu ön plana çəkilir. Bütün orta əsrlər boyu xalqın məişət mədəniyyətinin daşıyıcıları olan bu avadanlıqlar XIX əsr və XX əsrin 60-70 və hətta 80-ci illərinə qədər məişətdə istifadə olunmuş, xalq məişətində özünü göstərən yeni keyfiyyət dəyişiklikləri nəticəsində ailə məişətində meydana çıxan yeni-yeni avadanlıqlarla rəqabətdə sıxışdırılmış və zaman-zaman məişətdə istifadədən çıxmışdır. Bu gün Azərbaycan muzeylərində, xüsusilə Milli Azərbaycan Tarixi Muzeyində özünün ilkinliyini qoruyub saxlayan, keçmiş məişət mədəniyyətimiz haqqında əyani-vizual təsəvvürlər yarada biləcək dərəcədə orijinal olan, dəyərli etnoqrafik mənbə hesab olunan eksponatlar olduqca qiymətlidir.

İkinci fəslin ikinci bölməsi bütünlüklə «**Evlərin interyeri üçün toxuma və tikmə məmulatları**»na həsr olunmuşdur. Muzey fondlarında qorunan eksponatlara istinad edilməklə bu bölmədə xalqımızın ailə məişətində əsas yer tutan ev müxəlləfatları - müxtəlif ölçülü və formalı quramalar, divar pərdəsi və ev bəzəyi - divaravurma, "sallamaça"- güzgü üçün pərdə, ləməqabağı, buxarı üçün pərdə, paltar boxçası, mütəkkə, döşəkcə, nazbalış üzlükləri və örtükləri, gərdək torbası, pərdəbaşı, xonça örtüyü, eləcə də ev məişətində istifadə olunan təknə qabı, sap qabı, quran qabı, qaşıqlıq, qotaz nümunələri, möhür qabları, süfrələr və s. sənət yaradıcılığı nümunələri etnoqrafik tədqiqata cəlb olunmuş onların məişət mədəniyyətimizin önəmli tərkib hissəsi olduğu faktlarla sübuta yetirilmişdir. Bu məmulatlar milli özünəməxsusluğu ilə seçilməklə, Azərbaycan xalqının məişət mədəniyyətinin gerçək durumu barədə aydın təsəvvürlər yaratmağa qadirdir.

Fəslin üçüncü bölməsi «**Toy mərasimi ilə bağlı muzey eksponatları**» adlanır. Uzun əsrlər boyu xalqımızın məişətində əsas yerlərdən birini tutan, müəyyən dəyişikliklərə məruz qalsa da, öz ilkin mahiyyətini qoruyub saxlayan, türk etnik-mədəni mühitinin ibtidai təxəyyül imkanlarının yaratdığı və

elin-obanın böyük şənliklərlə keçirdiyi milli adətlər kompleksindən birincisi toyla bağlı adətlərdir. Toy, eləcə də onunla bağlı adətlər, mərasimlər xalqımızın məişət mədəniyyətinin mühüm tərkib hissəsi olub, uzun əsrlər boyu formalaşaraq bu günümüzdə də əzəli-əbədi əhəmiyyətini qoruyub saxlamaqdadır. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda saxlanılan eksponatların xalqımızın maddi və mənəvi dünyasının, təsərrüfat və ailə məişətinin öyrənilməsində mühüm tarixi əhəmiyyəti olduğu kimi, toy mərasimi ilə bağlı eksponatların da bu sahədə rolu olduqca böyükdür. Muzeyin fondu toy mərasimi ilə bağlı geyimlər, aksessuarlar, məişət əşyaları və s. bu qəbildən olan nümunələrlə çox zəngindir və bunlar xalqımızın toy adətlərinin öyrənilməsində maraq doğuran mənbələrdir. Bölmədə gəlin köçəcək qız üçün gətirilməli olan pal-paltar dəstləri - tuman üçün xara parça, bahalı parıltılı parça olan – andrimadan kostyumluq, lavada üçün qırmızı məxmər, zıvını üçün bənövşəyi rəngli məxmər, çərkəzi üçün ondan bir az tünd parça, baş üçün püstumarı ağ cuna, əlvan rəngli böyük ipək kəlağayı, baş yaylığı olan xas qırmızı rəngli saçaqlı və böyük yun şal, cehiz nümunələri - diqqəti cəlb edən qırmızı və bənövşəyi rəngli məxməri, qanovuz, mahud, ipək parçalardan hazırlanmış, zərxara, zərbuta, təkəlduz tikməli süfrə, yorğan, balış, döşək və mütəkkə üzləri, milli naxışlarla toxunmuş xalça-palaz, üzəri nəbati, həndəsi, astral motivlərlə bəzənmiş müxtəlif qazan, güldan, samovar, gülabdan, şərbətxor və digər bu kimi məişət əşyaları geniş etnoqrafik təhlilə cəlb olunur, onlar xalqımızın gözəl zövqə və qabiliyyətə malik olmasından xəbər verməklə yanaşı, məişət mədəniyyətimizin də əyani-vizual göstəricisi rolunu oynayır. Bu bölmədə həmçinin paltar biçmə və xınayaxdı mərasimləri üçün xınabənd, xına ləçəyi, qolçaq, gərdək və gərdək torbası kimi toyla bağlı eksponatlar haqqında da geniş məlumatlar verilir.

Toy mərasimlərinin bütün mərhələlərində oğlan evi gəlinin xonçalarını, libaslarını, cehizini, otağını, eləcə də özünü bədnəzərdən qorumaq üçün üzərlik yandırar, pis nəfslərdən, şər qüvvələrdən qorumaq üçün ayinlər icra edərdilər. Həmçinin müxtəlif göz qaytaran amuletləri, xüsusilə də göz muncuğunu gəlinin və onun əşyalarının üzərindən asardılar. Muzeyin materialları arasında Quran qabı, tilsimlər, qırxaçar camı, göz muncuğu, üzərlik, hal dabanı və s. bu kimi dini və mifik əşyalar da qorunub saxlanılır ki, bunlar da xalqımızın mənəvi dünyasını, məişətini, dünyabaxışını öyrənmək baxımından əhəmiyyətlidir.

Nəhayət, II fəslin son bölməsi **«Ailənin gündəlik və mərasim geyimləri»** adlanır. Muzeydə mühafizə olunan və ailə məişətinin müəyyən bir qismini təşkil edən ənənəvi xalq geyimləri, maddi mədəniyyətin digər sahələri kimi, hər bir xalqın həyat və məişətinin ayrı-ayrı məsələlərini araşdırmaq üçün zəngin etnoqrafik materiallar verir. Onlar hər bir xalqın milli xüsusiyyətlərini, iqtisadi və mədəni həyat səviyyəsini, təsərrüfat məşğuliyyətinin istiqamətini, bir etnosun başqa etnosla tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini,

etik normalarını, estetik və bədii zövqünü, etnik və sosial mənsubiyyətini müəyyənləşdirməkdə əhəmiyyətli mənbə rolunu oynayır.

Azərbaycanın geyim mədəniyyəti qadın geyimləri, kişi geyimləri və uşaq geyimləri ilə təmsil olunur. Bu geyimlər həm də mərasim geyimləri (toy, yas, bayram), gündəlik geyimlər, əhalinin müxtəlif sosial qruplarının peşə mənsubiyyəti ilə əlaqədar geyimlər, mövsümi səciyyəli geyimlər və s. kimi də fərqlənirlər. Muzey materialları içərisində qadın geyim dəstləri həm özünün növ müxtəlifliyi, həm də sayı cəhətdən kişi və uşaq geyimlərini üstələyir. Qadın geyimləri içərisində qadın tuman və köynəyi, eləcə də üst geyim növləri olan baharı, küləcə, kürdü-eşmək, arxalıq, çəpkən, sırıqlı (pambıqlı, içlik), ləbbadə və s. fondun geyim tipləri içərisində üstünlük təşkil edir. Xalqımızın ailə məişətində və ümumiyyətlə, məişət mədəniyyətində belə gündəlik və mərasim geyimləri onun estetik və bədii zövqünü, mədəni inkişaf səviyyəsini və milli özünəməxsusluğunu daha aydın şəkildə əks etdirir. Bu bölmədə qadın, kişi və uşaq geyimlərinin muzeydə mühafizə olunan geniş çeşidləri etnoqrafik tədqiqata cəlb olunmaqla, onların timsalında XIX-XX əsrin əvvəllərinin xalq məişətinin real mənzərəsi verilir, məişətdə və mərasimlərdə istifadə olunan xalq geyim dəstinin tam kompleksi yaradılır. Aparılan araşdırmalardan məlum olur ki, Azərbaycan xalqının məişət mədəniyyətinin formalaşmasında geyim mədəniyyəti, bu mədəniyyətin tərkib hissəsi olan gündəlik və mərasim geyimləri mühüm rol oynamışdır. Xalq özünün ailə məişətində rəng uyarlığı ilə seçilən, təsərrüfat işləri üçün yararlı, hərəkətə sərbəstlik verən, toy və yas mərasimlərinə uyğun geyimlər seçməyə çalışmış, buna həmişə də nail olmuşlar. Milli Azərbaycan Tarixi Muzeyinin fond və kolleksiyalarında mühafizə olunan geyimlər və onların tərkib hissələri söyləməyə imkan verir ki, xalqımızın geyim mədəniyyəti zəngin olmuş, xalq özünün ailə məişətində bu geyimlərə daim müraciət etmişdir. Bölmədə həmçinin məişətdə istifadə olunan geyim bəzəklərinə də müəyyən yer ayrılmış, bu bəzəklərin çeşidləri, funksional xüsusiyyətləri, təyinatı, gəzdirilmə tərzi, sosial mənsubiyyət daşıyıcısı olması etnoqrafik dəlillərlə şərh olunmuşdur. Muzey materiallarından aydın olur ki, zəngin çeşidli zinət-bəzək nümunələri zər-zivər içində süstlənən bəy, xan, tacir və s. kimi varlı zümrələrin qadınlarının geyim dəstində üstün yer tutmuş, yoxsul qadınları isə onları varlılardan birovuz götürməklə istifadə etmiş, daim özlərininki olmasını arzulamış, çox zaman da ucuz başa gələn zinət-bəzək əşyalarından (tuncdan, gümüşdən, şüşədən, hətta meyvə çəyirdəklərindən hazırlanmış əşyalardan) istifadə etmişlər.

Dissertasiya işinin III fəsli «**Xalq məişətində sənətkarlıq məhsulları**» adlanır. Bu fəslin birinci bölməsi «**Ənənəvi dulusçuluq məmulatları**»na həsr olunmaqla, dulusçuluq sənəti nümunələrinin xalq məişətində istifadəsi barədə geniş etnoqrafik məlumatlar kompleksini özündə birləşdirir. Qeyd edək ki, xalq məişəti özündə təsərrüfat və ailə məişəti sahələrini birləşdirməklə, bütöv məişət mədəniyyəti kompleksi yaradır. Məişət mədəniyyəti kompleksinin yaradılmasında isə xalqımızın sənət fəaliyyətinin başlıca rolu olmuş-

dur. Azərbaycanda sənətkarlığın ən qədim sahələrindən biri olan dulusçuluq sənəti Neolit dövrünün mühüm nailiyyətlərindən sayılır. Azərbaycanın Qəbələ, Xanlar, Mingəçevir, Beyləqan, Bəndovan, Mollaisaqlı və b. yaşayış məskənlərində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilən və hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda mühafizə olunan dulus məmulatları Azərbaycanda da bu sənət növünün və onun məhsullarının qədimdən məişət mədəniyyətinin formalaşmasında böyük rolu olduğunu təsdiqləyir. Orta əsrlərdə daha da intensiv inkişaf edən dulusçuluq sənəti, xüsusilə də onun məişət qabları istehsalı sahəsinin başlıca mərkəzləri Bərdə, Ərdəbil, Təbriz, Naxçıvan, Gəncə, Beyləqan, Mingəçevir, Şamaxı, Bakı və b. iri Azərbaycan şəhərləri olmuşdur. XIX-XX yüzilliyin əvvəllərində isə Yelizavetpol quberniyası, Quba-Lənkəran, Göyçay, Cavanşir, Cəbrayıl, Şamaxı, Naxçıvan qəzaları, Şəki, Gəncə və Bakı şəhərləri dulus qabları istehsalında başlıca rol oynamışdır. Dissertasiya işində gil-saxsı məişət qabları təyinatına görə təsərrüfat küpləri, su qabları, süd-ağartı məhsulları üçün nəzərdə tutulan qablar, xörək qabları, isitmə və işıqlandırma vasitələri (gil manqallar, kürələr, durna çıraqları, gil çıraqlar) və s. kimi qruplaşdırılır, onların hər birinin etnoqrafik və işçi xüsusiyyətləri, məişətdə yeri və rolu ətraflı şərh olunur.

III fəslin ikinci bölməsi «**Ağacişləmə sənəti məhsulları**» adlanır. Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında ağacdan hazırlanmış təsərrüfat və məişət avadanlıqlarının çoxlu nümunələri qorunub saxlanmışdır. Bunları istifadə təyinatına görə aşağıdakı şəkildə qruplaşdırmaq məqsədəuyğundur: 1. Toxuculuq alətləri (hana, cəhrə, daraq, həvə, kirkit, şərbaf dəzgahı, əl mancalığı, həsir toxuyan dəzgah). 2. Təsərrüfat məişəti avadanlıqları (xış, qara kotan, vəl, carcar, ağac mala, şana, kürək, ağac yaba və s.). 3. Nəqliyyat və yük avadanlıqları (araba, yəhər qaltağı, tək və qoşa boyunduruq, dəvə cahazı, təkər, çəllək). 4. Musuqi alətləri (saz, tar, kamança, ney, zurna, tütək, qoşa nağara və s.). 5. Ev tikintisində istifadə olunan avadanlıqlar (şəbəkə, məhəccər, eyvan bəzəkləri). 6. Ev məişətində istifadə olunan ağac qablar və avadanlıqlar (mücrü, təknə-tabaq, çömçə-qaşıq dəstləri, həvəngdəstə, oxlov-yuxayayan, qənddoğrayan, ağac tərəzi, duvaq, şadara, maya qabı və s.). Dissertasiya işində xalqımızın məişət mədəniyyətində daha kütləvi şəkildə istifadə olunan ağacişləmə sənəti nümunələrinə geniş yer verilmişdir. Azərbaycanda XX əsrin əvvəllərinə kimi ağacdan məişət qabları və ev avadanlıqları hazırlamaq sahəsində böyük tarixi ənənə formalaşmış, xalq özünün məişət tələbatını ödəmək üçün bu qablara və avadanlıqlara ev təsərrüfatında və mətbəx mədəniyyətində geniş yer ayırmışdır. Yüngüllüyü, sınma ehtimalının son dərəcə azlığı, ucuz başa gəlməsi, portativliyi (gəzdirilməsi) ağac məişət qabları və avadanlıqlarının həm oturaq əhalinin, həm də köçmə-maldar elatların məişətində üstünlüyünü şərtləndirmişdir.

Bu fəslin üçüncü bölməsi «**Metaldan hazırlanan məişət avadanlıqları**» adlanmaqla, özündə üç yarımbölməni («**Dəmirçilik sənəti nümunələri**»,

**«Bürüncdən hazırlanan məmulatlar», «Misdən hazırlanmış məişət avadanlıqları»)** birləşdirir. Milli Azərbaycan Tarixi Muzeyinin fondlarındakı eksponatların müəyyən bir qismi də xalqımızın təsərrüfat və ailə məişəti ilə sıx surətdə bağlı olan, Azərbaycan xalq sənətkarlıq mədəniyyətinin mühüm qollarından birini təşkil edən dəmirçilik sənəti nümunələrinə aiddir. Dəmirdən hazırlanmış məişət avadanlıqlarını təssərrüfat məişəti ilə bağlı olan avadanlıqlar (papaqçı qayçısı, mişar, çəkic, kərki, neft qabı, külüng, gavahın, tərəzi, arşın, kotan, buxov, toxa, kətmən, matkaf-burğu, çəki daşları və s.); ailə-ev məişətində istifadə olunan dəmir avadanlıqlar (padnos, metal qutular, bıçaq, üskük, qənd qayçısı, samovar, qənddan, şamdan, lampa, qənddoğrayan, cib saatı, qiyməkeş, həvəngdəstə, quranqabı, ərsin, kabab üçün şiş, kömür ütüsü, qayçı, metal döyrə, daxıl, yun darağı, teşt, şərbət qabı və s.) və hərb sənəti ilə bağlı avadanlıqlar (qalxan, zireh, qılınc, təbərzin, tüfəng, patrondaş və s.) kimi qruplaşdırmaq mümkündür. Dissertasiya işində onların hər bir nümunəsi haqqında geniş məlumatlar verilir və xüsusi olaraq qeyd olunur ki, xalqımızın təssərrüfat və ailə məişətində, sənət-ticarət sahələrində dəmirdən hazırlanmış avadanlıqların öz xüsusi rolu və əhəmiyyəti olmuşdur. Bu səbəbdəndir ki, dəmirçilik sənətinin keçmişdə, demək olar ki, hər bir kənddə nümayəndələri olmuş, onlar xalqın bu alət və avadanlıqlara olan tələblərini ödəməyə çalışmışlar.

Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında toplanmış metal məmulatlarının bir qismini də bürüncdən hazırlanmış məişət avadanlıqları təşkil edir. Onların içərisində samovar, asma qəndil, şamdan, sürmədan, manqal, sini, kömür ütüsü, qəlyan üçün maşa, qırxaçar camları və s. özünün orijinallığı, bəzək harmoniyasının səlistliyi, zərif işlənilməsi və lakonikliyi ilə seçilir. Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan bürünc avadanlıqlar və ailə-məişət ləvazimatları göstərir ki, xalqımız maddi imkandan asılı olaraq bürünc məmulatlarına da müraciət etmiş, məişət mədəniyyətində onlardan az-çox dərəcədə istifadə etmişdir.

Nəhayət, dəmirçilik sənətinin mühüm bir qolunu təşkil edən mis məmulatları istehsalına da dissertasiya işində geniş yer verilmişdir. Qədim tarixə malik olan misgərlik sənətinin XIX-XX əsrin əvvəllərində başlıca mərkəzləri Bakı, Şamaxı, Şəki, Gəncə, Naxçıvan və Şuşa olmuş, Nuxa (Şəki), Quba və Lənkəran şəhərlərində misgər dükanları fəaliyyət göstərmiş, Lahıc kəndi isə misgər-sənətkarlar kəndi kimi şöhrətlənmişdir. Mis məmulatları istehsalı Lahıcın yeddi məhəlləsindən birində – Ağalı məhəlləsində (keçmişdə «Şah küçə» adlanmışdır) cəmlənmiş, burada həm də «Misgər bazarı» fəaliyyət göstərmişdir. XIX əsrin 30-cu illərində burada 52 misgər dükanı olsa da, əsrin ikinci yarısında onların sayı 200-ə çatmışdır. Bəhs olunan dövrdə Lahıcın 1000 nəfərədək sakini misgərlik və onunla bağlı peşələrlə (kömürbasma, çarvadarlıq və s.) məşğul olmuşdur. Azərbaycan misgərlərinin hazırladığı müxtəlif çeşidli, formalı, nəfis ornamentli mis qablar xalqımızın mətbəx müxəlləfatının əksəriyyətini təşkil edərək həm oturaq əhalinin, həm də maldar elat-

ların geniş istifadəsində olmuşdur. Etnoqraf H.A.Quliyev təkcə Lahıc misgərlərinin hazırladıqları mis qabların təqribi siyahısını vermiş, buraya 71 adda mis məmulatını aid etmişdir. Mis qablar cehiz kimi sifariş olunmuş, kəndbəkənd gəzən səhragərdlərdən satın alınmış, satış üçün bazarlara çıxarılmış, işlədilməyənləri rəflərə düzülərək sahibinin maddi imkanının göstəricisi olmuşdur. Adətən od üzərinə qoyulmayan mis qablar müxtəlif həndəsi, nəbati naxışlarla bəzədilir, demək olar ki, bütün mis qablar qalaylanaraq işlədilirdi. Bəzən mis qabların üzərində sahibinin adı və qabın satın alındığı tarix yazılırdı. Belə yazılar əksər hallarda qıza cehiz alınan və məscidlərə vəqf edilən qabların üzərində olurdu. Müsəlman hicri-qəməri təqviminin səfər ayında doğulan əziz-xələf oğlan uşaqlarının adına da mis qab «döydürür», oraya qabın hazırlanma tarixini, uşağın adını və təvəllüdünü yazdırırdılar. Xüsusi səriştəli həkkakların mis qablara vurduğu naxışlar əsas etibarilə yarpaq, buta, qızılgül, budaqda və ya qönçə üzərində oturan quş, eləcə də ceyran, cüyür, və ya insan, dəhrəburnu və müxtəlif həndəsi naxışlardan (rombabənzər, üçbucaq, düz, sınıq və əyri xətlər) və s-dən ibarət olurdu. Muzeydə qorunan mis məmulatlarını yalnız xörək bişirilməsində istifadə olunan qablar (qazan – qulplu qazan, xeyir-şər qazanı, zəncirli-məclis qazanı, bala qazan, orta qazan, tiyənçə, döyrə, tavasar, çömçə, tava, tiyan, teşt, taskababı, sapılca, kəfkir, aşsüzən və s.); süfrə qabları (çömçə, mis kasa, şərbəti – kiçik və dərin nimçə, peşqon – böyük sini, sərpuş, məcməyi, sini, kasa, cam, sahan, dəhmərdan və s.); su və süd-ağartı qabları (səhəng, güyüm, farş, gəl-gəl, qabcaq, lüləyin, tayqulp, dolça, parç, aftafa-ləyən, abgərdən, satıl, piyalə, məşqəfə, hamam tası, sətilcə, tas, ləyən, fəşir, yəhər camı, sərnic, badya, qablama, tiyan, cınqır, qapaqlı); eləcə də ev məişəti üçün gərəkli olan digər qablar və avadanlıqlar (şamdan, qəhvəqovuran, şərbət qabı, samovar, çıraq, lampa, manqal, qənddan, ədviyyat qabı, gülabdan, gül qabı, rüşül qabı və s.) kimi qruplaşdırmaq mümkündür. İşdə mis qabların və avadanlıqların muzeydə qorunan geniş çeşidləri tədqiq olunur, məişət mədəniyyətimizin formalaşmasında əhəmiyyəti araşdırılır.

III fəslin son bölməsi «**Xalça-palaz dəstləri və həsir məmulatları**» adlanır. Azərbaycan xalqının məişət mədəniyyətində ənənəvi yun məmulatı istehsalı, xüsusilə xalça-palaz istehsalı da əsas yer tutmuş, xalq məişətində bu məmulatlara bütün tarixi dövrlərdə yüksək tələbat olmuşdur. Yetərincə inkişaf etmiş dekorativ-tətbiqi sənətin mühüm sahələrindən olan xalçaçılıq Şərq xalqlarının mədəni nailiyyətlərindən olub, çox böyük təkamül yolu keçmişdir. Orta əsrlər Azərbaycanında özünün ən yüksək inkişaf pilləsinə çatan xalçaçılıq sənəti sonralar da inkişaf etdirilmiş, özünün toxuma texnologiyası, rəng harmoniyası, bədii-estetik zövqlü təsvirləri, həndəsi və nəbati naxışları, süjet və kompozisiyaları, eləcə də geniş çeşidləri və çeşniləri ilə daim fərqlənmiş, zaman-zaman bu sənətin məhəlli-lokal xüsusiyyətləri ilə seçilən Təbriz, Quba-Şirvan, Qarabağ və Gəncə-Qazax xalçaçılıq məktəbləri yaranmışdır. Bu xalçaçılıq məktəblərində toxunan süjetli və ornamental xalça nümu-

nələri özünün yüksək keyfiyyəti, orijinallığı, göz oxşayan rəngi və bəzək-təsvirləri ilə dövrünün kamil sənət əsərləri hesab olunmuşdur. Azərbaycan xalqının məişət mədəniyyətində xalça-palaz məmulatının yerini və rolunu müəyyənləşdirən etnoqraf A.Mustafayev yazır ki, «ev məişətinin zəruri ünsürünə çevrilmiş xalça-palaz məmulatı təkcə yaşayış binalarının daxili sahmanında deyil, habelə feodal sarayları, məscid, mədrəsə, xanəgah, ibadətgah, zorxana, karvansara və digər ictimai binaların döşəmə və divarlarının bədii tərtibatında əsrlər boyu başlıca yer tutmuşdur. Yüksək dəyərə malik sənət məhsulu olmaq etibarilə evdə xalça məmulatının çoxluğu ailənin maddi imkanını əks etdirən mühüm sosial-iqtisadi göstəricilərdən birinə çevrilmişdi. Əməli məişət əhəmiyyətini və istehlak dəyərini uzun müddət saxlayan xalça məmulatı ailə-kəbin münasibətləri (cehiz), vergi ödəncləri, hədiyyə və digər sosial məsələlərin həllində mühüm rol oynamışdır. Yüksək dekorativ məziyyəti və texniki keyfiyyəti ilə seçilən Azərbaycan xalçaları təkcə ölkə daxilində deyil, habelə beynəlxalq ticarətdə ən rəvac sənət məhsulu kimi yüksək tutulurdu. Məhz bu səbəbdən də keçmişdə Azərbaycanda xalça toxunmayan nəinki kənd və ya şəhər, hətta ailə tapmaq çətin idi. Azərbaycan qadını üçün xalça-palaz toxumaq ən adi məşğuliyyət növü, keçmiş ailə məişətinin zəruri tələblərindən biri idi. Xüsusilə xalçaçılığın geniş inkişaf etdiyi maldar elatlar arasında vaxtilə mövcud olmuş kəbin münasibətlərində gələcək gəlinin ev işləri arasında onun toxuculuq sahəsindəki məharətinə ciddi əhəmiyyət verilirdi». Bakı və Abşeron kəndlərində qızlar kiçik yaşlarından başlayaraq özləri üçün cehizlik xalçalar toxuyardılar. Hər cehizə ən azı 4 xalça, 4 palaz, 4 məfrəş, 4 xurcun və bir neçə dəst corab və s. daxil edilərdi. Adətən ailə məişətində xalçalardan bir-ikisi işlədilməyərək təzə saxlanılardı ki, ailədə hüzr düşdükdə mərhumu həmin xalçaya bükərək haqq dünyasına yola salardılar.

Xalqın məişət mədəniyyətində xalça-palaz məmulatının bu dərəcədə mühüm yer tutduğu səbəbindəndir ki, Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında 535 ədəd xalça və xalça məmulatı böyük qayğı ilə qorunub saxlanmaqdadır. Xalqımızın ailə məişətində mühüm məişət məmulatı kimi qiymətləndirilən xalçaların müxtəlif xalçaçılıq məktəblərinə xas olan nümunələrinə nəzər saldıqda onların hər birinin məhəlli-lokal xüsusiyyətlərini, çeşni müxtəlifliyini, təsvir və ornament zənginliyini, bədii simmetriyasını, harmonik rəng çalarlarını, bir sözlə, yüksək keyfiyyətini görə bilirik. Dissertasiya işində bu məsələlərə geniş yer verilir, hər bir xalçaçılıq məktəbinin bədii xüsusiyyətləri muzeydə qorunan xalça nümunələri timsalında etnoqrafik araşdırmalara cəlb olunur, xalq məişətinin ayrılmaz tərkib hissəsi olan xalça-palaz məmulatlarının cərgəsinə daxil edilən xovsuz xalça məmulatları – palaz, kilim, vərni, sumax, şəddə, ladı və s. də tədqiq edilərək onların xalq məişətində yerinə və roluna aydınlıq gətirilir.

Azərbaycan xalqının təsərrüfat və ailə məişətində həsirdən hazırlanmış məmulatlardan da geniş şəkildə istifadə olunmuşdur. İlkin izləri hələ Mezolit və Neolit dövrlərinə gedib çıxan hörmə və toxuma kimi bəsit tex-

niki vərdişlərin sonradan təkmilləşdirilməsi nəticəsində dəzgah toxuculuğu yaranmış, Azərbaycanın Lənkəran-Astara bölgəsində dəzgah üsulu ilə həsir toxuculuğu bu gün də öz əməli əhəmiyyətini itirməmişdir. Xüsusilə eşmə və burma üsulu ilə lifli bitkilərdən (lığ, ziyəlığ, pizə, xuqəpizə, dala, kənaf, kəndir və s.) tələb olunan ölçüdə ciyə hazırlamaqla bağlama, hörmə, tikmə və toxuma üçün zəruri texniki keyfiyyətlərə malik istehsal materialı əldə edilmiş, bu da toxuma dəzgahının yaranmasını labüd etmişdir. Həsir toxuma dəzgahlarının şaquli («dasko») və üfÜqi olmaqla iki əsas tipi zəmanəmizədək gəlib çatmışdır. Bir qayda olaraq saya həsir toxuculuğunda şaquli dəzgahdan, güllü həsir toxuculuğunda isə üfÜqi dəzgahdan istifadə olunurdu. Həsirçilik sənətinin istehsal texnologiyasını araşdıran etnoqraf A.Mustafayev Lənkəran-Astara bölgəsində vaxtilə həsirin hərəmi (baş hərəmi, qoşa hərəmi), nəlbəki gülü, zərəni gülü, doğanaq (əyri doğanaq, girdə doğanaq), şanagül, girdəgül, nevincənə, cınağı, məcməyi, teşti, dəvəboynu, pişkəçanq, kitbəsəkit (saya), kəşli, ənzəli, ağnaxış və b. çeşnilərinin dəbdə olduğunu qeyd edir.

Azərbaycanın Lənkəran-Astara bölgəsində həsirdən hazırlanmış ev döşənəkləri, zənbil, süfrə, məişət qabları, üzərinə çəltik sərib qurutmaq üçün həsir palaz, içində düyü saxlamaq üçün kisə (kövşərə və ya kosara), məişət yükləri və meyvəcat daşımaq üçün arxa səbətləri və s. özünün təsərrüfat və məişət əhəmiyyətini əsrlər boyu saxlamışdır.

Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında mühafizə olunan həsirçilik sənəti nümunələri özünün istehsal texnologiyası, nəfis toxuma üsulu, forması, naxışları, əməli əhəmiyyəti ilə diqqəti çəkir. Muzeydə qorunan həsirçilik sənəti nümunələrinin bir qismini həsir döşənəklər (palazlar) təşkil edir. Həsir məmulatı evin döşəməsində olan nəmişliyi özünə çəkdiyindən çox zaman döşəməyə əvvəlcə həsir salınır, onun üstündən də xalça-palaz döşənirdi. Bəzən evin divarlarına da yerdən 50-60 sm hündürlükdə həsir çəkilirdi. Çünki həsir həm də evin havasının təmizliyində mühüm rol oynayırdı.

Dissertasiya işinin «**Nəticə**» hissəsində tədqiqat işinə yekun vurulur və çıxarılan nəticələr ümumiləşdirilir. Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında Azərbaycan xalqının məişət mədəniyyətinin tədqiqi üzrə apardığımız araşdırmalar təsdiq edir ki, bu mədəniyyətin ayrı-ayrı sahələri uzun sürən tarixi inkişaf prosesinin məhsulu olaraq, yerli təbii-coğrafi şəraitin, əhalinin təsərrüfat məşğuliyyətinin istiqamətinin, sosial təbəqələşmənin, xalqın ənənəvi həyat və məişət tərzinin, eləcə də Azərbaycan mühitində etnik-siyasi palitranın yaratmış olduğu qarşılıqlı müştərək zənginləşmənin fəal təsiri altında formalaşmışdır. Muzeydə mühafizə olunan hər bir məişət mədəniyyəti ilə bağlı eksponatın yaranmasında, böyük təkamül və inkişaf yolu keçməsində xalqın yaradıcı əməyinin, empirik bilik və təcrübəsinin, nəsillərdən-nəsillərə ötürülən sənət-peşə vərdişlərinin böyük rolu olmuşdur. Bütün bu

kompleks təbii-tarixi və sosial-mədəni faktorların məntiqi nəticəsi kimi xalqımızın zəngin, mükəmməl və orijinal məişət mədəniyyəti irsi meydana gəlmişdir. Belə bir çoxçalarlı, ənənələri, əxlaqi-estetik və bədii xüsusiyyətləri neçə-neçə nəsillərə örnək ola biləcək məişət mədəniyyətimiz cəmiyyətin sosial-siyasi və iqtisadi sferasında baş verən yeni keyfiyyət dəyişikliklərinin fəal diqtəsi altında müasirləşmiş, ənənəvi məişət mədəniyyətini öz varlığında yetərincə qoruyub saxlaya bilmiş bir çox maddi mədəniyyət və sənət nümunələri muzey eksponatlarına çevrilmişlər. Azərbaycan xalqının maddi-mənəvi irsinin qorunmasında, təbliğində və gələcək nəsillərə məişət və mədəniyyətimiz haqqında yetərli məlumatların çatdırılmasında muzeylərimiz müstəsna dərəcədə əhəmiyyətli rol oynayır. Burada mühafizə olunan eksponatlar xalqımızın təsərrüfat və ailə məişətini, maddi və mənəvi mədəniyyətini, sənət yaradıcılığını, mübarizələrlə dolu tarixini, bir sözlə, ən qədim zamanlardan müasir dövrümüzə qədər keçdiyi böyük inkişaf və tərəqqi yolunu əyani-vizual görüntülərlə əks etdirir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində əksini tapmışdır:**

1. Azərbaycan xalqının mənəvi mədəniyyətinin öyrənilməsində musiqi alətlərininin rolu / Azərbaycan Milli Elmlər Akademiyası aspirantlarının Elmi Konfansının materialları (iyun 2009-cu il). Bakı, Elm, 2009, səh. 143-146
2. Azərbaycan xalqının toy adətləri / Azərbaycan Milli Elmlər Akademiyası aspirantlarının Elmi Konfansının materialları (may 2010-cu il). Bakı, Elm, 2010, səh. 429-432
3. Ev təsərrüfatında istifadə olunan agac qablar və məişət avadanlıqları (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) / Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı, № 2, 2010. səh.133- 141
4. Milli Azərbaycan Tarixi Muzeyinin materiallarında milli-mənəvi dəyərlərimizin əksinə dair / Milli Azərbaycan Tarixi Muzeyi – 2010. Bakı, Elm, 2010, səh. 209-218
5. Dulusçuluq sənəti nümunələri xalq məişətində (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) / Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. № 1, 2011, səh. 238-243
6. Azərbaycanın təsərrüfat məişətində istifadə olunan əkinçilik alətləri (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) /Azərbaycan Milli Elmlər Akademiyası doktorantlarının Elmi Konfransının materialları (may 2011-ci il). Bakı, Elm, 2011, səh. 234-239
7. Milli Azərbaycan Tarixi Muzeyində mühafizə olunan bəzi qadın geyimləri haqqında / «Muzeylərin müasir durumu və inkişaf perspektivləri» Beynəlxalq Elmi Konfransın materialları (tezislər. 29.06-

30.06. 2011). Bakı, 2011, səh. 45-46
8. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Fondunda Səfəvilər dövrünə aid eksponatlar / Gənc alimlərin I Elm Festifalı (13-15 iyul 2011-ci il. Bakı). Bakı, Elm, 2011, səh.524-529.
9. Традиционные изделия из вязки и вышивки для использования в интерьере жилых домов азербайджанского народа (на основе материалов Национального Музея истории Азербайджана) / Казахский Национальный Педогогический Университет имени Абая. «Вестник». Серия «Исторические и социально-политические науки», Алматы, 2011, № 3 (30), с. 163-167
10. Azərbaycan xalqının bağçılıq və yardımçı təsərrüfat ənənələrinin öyrənilməsi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) / Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı, № 2, 2011. səh.181-186
11. Xalq məişətində xalça-palaz dəstlərinin yeri və rolu (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) / "Təsviri və dekorativ-tətbiqi sənət məsələləri" elmi məqalələr toplusu, № 2 (10), 2012. səh. 17-26

**Гасанова Г.Ч.**

# БЫТОВАЯ КУЛЬТУРА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА (По материалам Национального Музея Истории Азербайджана)

## РЕЗЮМЕ

Диссертационная работа, посвящена изучению бытовой культуры азербайджанского народа на основе материалов Национального Музея Истории Азербайджана. В исследовании использованы научная литература, результаты археологических исследований, которые дали возможность создать реальную этнографическую картину бытовой культуры.

Диссертация состоит из введения, трех глав, заключения и списков использованной литературы и сокращений, также к работе приложен иллюстративный альбом.

Во введении обосновываются актуальность темы, цель и задачи, хронологические рамки исследования, рассматриваются предмет и объект исследования степень изученность проблемы, теоретико-методологическая и источниковедческая база, научная новизна, научно-практическая значимость и структура диссертации.

I глава «Хозяйственный быт» состоит из трех разделов: «Орудия земледельческого труда, используемые в хозяйственном быту», «Музейные экспонаты, связанные со скотоводством», «Садоводство и подсобные хозяйственные отрасли».

Во II главе «Семейный быт» к исследованию привлечены предметы домашнего обихода, изделия вязания и вышивки для интерьера жилища, музейные экспонаты, связанные со свадьбой, а также повседневная и ритуальная одежда.

III глава называется «Изделия ремесла в прошлом быту». На основе материалов Национального музея истории Азербайджана НАНА исследуются ремесленные изделия, занимающие важное место в быту – изделия традиционного гончарства, деревообработки, металлообработки, ковровые изделия и т.д.

В «Заключении» обобщены основные научные результаты диссертации.

**Hasanova G.C.**

## LIFE CULTURE OF AZERBAIJANIAN PEOPLE
## (Based on materials of National Museum of History of Azerbaijan)

## SUMMARY

Thesis work is based on materials of National Museum of History of Azerbaijan dedicated to the study of the daily life culture of Azerbaijan people. Existing materials, excavation results have been used in this research to create a real ethnographic picture of Azerbaijanians life.

Thesis work consists of the preface, three chapters, the list of the literature used and abbreviations list. Illustrative album reflecting our people's life was also included into the thesis work.

The preface deals with the grounding of subject actuality, purpose and duties of research, chronological table, object-matter, problem solving condition, theoretico-methodological and sourse reference, scientific innovation, scientific practical importance, evaluation of research and structure of thesis work.

I chapter of thesis work is called «Domestic life» and consists of three parts: «Tools of agricultural labor used in the economic life», «Museum exhibits of animal farming» and «Gardening and subsidiary fields».

II chapter is named «Family life». Here home facilities, construction products for interier of houses, museum pieces regarding weddings and family's daily and best clothes were drawn into research work.

III chapter is titled as «Art pieces in domestic life». Scientific ethnographical research of traditional potter's wares, domestic implements made of metal (art pieces made of iron, bronze and copper) and also set of carpet-palaces and matting is based on materials of ANAS National Museum of History of Azerbaijan.

In "Conclusion" part the carried research work has been summerized and common sense of it is shortly introduced and generalized.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

*На правах рукописи*

**ГЮНАЙ ЧАПАЙ кызы ГАСАНОВА**

# БЫТОВАЯ КУЛЬТУРА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА
## (По материалам Национального Музея Истории Азербайджана)

5101.01 – Этнография и этнология

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2013**